İPƏK YOLU, No.1, 2019, səh.12-19

# İNFLYASİYA İLƏ İQTİSADİ ARTIM ARASINDAKI ƏLAQƏNİN DƏYƏRLƏNDİRİLMƏSİ

**Aynur Abdullayeva**

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı, Azərbaycan
e-mail: aynur_abdullayeva@rambler.ru

**Xülasə**. Tədqiqatın əsas məqsədi ölkədə mövcud olan inflyasiya ilə iqtisadi artım arasındakı əlaqənin dəyərləndirilməsi və ona təsir edən faktorların müəyyən edilməsidir. İşdə bəzi iqtisadçıların inflyasiyanın iqtisadi artım üçün zərərli olmayan həddinin (kritik hədd) müəyyən olunması yönündə bir sıra araşdırmaları təhlil edilmişdir.

**Açar sözlər**: inflyasiya, iqtisadi artım.

**ANALYSIS OF THE RELATIONSHIP BETWEEN INFLATION AND ECONOMIC GROWTH**

**Aynur Abdullayeva**
*Azerbaijan State University of Economics, Baku, Azerbaijan*

**Abstract.** The main purpose of the research is to evaluate the relationship between inflation and economic growth in the country and to identify the factors that affect it. In the paper the studies of some authors on the determination of the critical lavel of inflation are analysed.

**Keywords:** inflation, economic growth.

**ОЦЕНКА ОТНОШЕНИЯ МЕЖДУ ИНФЛЯЦИЕЙ И ЭКОНОМИЧЕСКИМ РОСТОМ**

**Айнур Абдуллаева**
*Азербайджанский Государственный Экономический Университет, Баку, Азербайджан*

**Резюме.** Основная цель исследования - оценить взаимосвязь между инфляцией и экономическим ростом в стране и определить факторы, которые влияют на нее. В статье анализированы работы некоторых авторов по определению критического уровня инфляции.

**Ключевые слова:** инфляция, экономический рост.

## 1. Giriş

İnkişaf səviyyəsindən asılı olmayaraq dünyada mövcud olan dövlətlərin əksəriyyətinin fiskal siyasətinin əsas hədəfi minimum inflyasiya ilə davamlı iqtisadi artıma nail olmaqdır. Məhz bu baxımdan da tarix boyu bu iki iqtisadi amilin qarşılıqlı təsir və əlaqələri həm nəzəri, həm də empirik tədqiqatlarla araşdırılmış və müxtəlif yanaşmalar əldə olunmuşdur. Belə ki, Stenli Fişer, Emre Alper, Robert Borro, Robert Mundell, Ceyms Tobin və s. kimi alimlər inflyasiya ilə iqtisadi artım arasındakı əlaqəni araşdırmışlar. Ölkədə mövcud olan yüksək inflyasiya resursların bölgüsü və yenidən bölgüsü zamanı tarazlığın pozulmasına, ictimai rifahın dəyərsizləşməsinə, investisiya mühitinin korlanmasına və nəticədə iqtisadi artımın səviyyəsinin aşağı düşməsinə dolayı və birbaşa təsir edir.

Sual olunur: ölkədə iqtisadi stabilliyə və artıma təsir edən inflyasiyanın hansı səviyyəsi hədəflənməlidir? İnflyasiya və iqtisadi artım arasındakı qarşılıqlı əlaqə hansı şərtlər daxilində inkişaf edir? İnflyasiyanın aşağı səviyyəsi bizə nə vəd edir?

Ümumiyyətlə, demək olar ki, hər bir ölkənin milli iqtisadiyyatında baş verən dəyişikliyi qiymətləndirmək üçün, əhalinin sosial-iqtisadi rifahının, habelə ölkənin iqtisadi inkişaf surətinin ümumi mənzərəsi barədə ən dolğun məlumatı əks etdirən ən əsas göstəricilərdən biri məhz iqtisadi artımdır.

Qeyd olunduğu kimi inkişaf səviyyəsindən aslı olmayaraq istənilən dövlət fiskal və monetar siyasətini yürüdən zaman əsas diqqətdə saxladığı məsələlərdən biri də iqtisadi artımla inflyasiyanın optimal həddinin müəyyən edilməsi, bu balansın daim saxlanılmasıdır. Qeyd olunan məsələlərin həllərini ancaq işlənilmiş və tətbiq olunmuş siyasət və ya nəzəriyyələrə istinad etməklə institusional mexanizmləri hazırlamaq mümkündür. Bəhs olunan məsələ üzrə iqtisadi tarixdə bir sıra nəzəriyyələrə rast gəlmək mümkündür. Ümumiyyətlə, II Dünya müharibəsindən sonra inflyasiya ilə iqtisadi artım arasındakı əlaqənin araşdırılmasına xüsusi diqqət yaranmış və bu məsələ iqtisadi müzakizə predmetinə çevrilmişdir. 1960-ci illərdə Tobin və Migel Sidrauski tərəfindən inflyasiyanın iqtisadi artıma müsbət təsir göstərəcəyi qənaətinə gəlinmiş və bildirmişlər ki, inflyasiya artımı nəticəsində əhali pulu yığıma deyil, maddiləşdirməyə can atacaqlar ki, bu da öz növbəsində investisiyalara müsbət təsir edəcəkdir.

Tarixə nəzər salsaq görərik ki, Ənənəvi Keynsçilər məktəbinin nümayəndələri aşağıdakı qrafiklə də müəyyən tədqiqat nəticələrini əks etdirməyə çalışmışlar (Şəkil 1).




**Şəkil 1**. Keynsçilər məktəbinin müəyyən dövr ərzində istehsal ilə inflyasiya arasındakı əlaqəni əks etdirən qrafik

Belə ki, onların fikrikcə, qiymətlərin E0-dan E1-ə artan zaman məhsul istehsalında da artım müşahidə olunur. Ancaq inflyasiya dərəcəsinin $\pi 1$-dən yuxarı qalxanda istehsalın azalmasına gətirib çıxaracaqdır. Keynsçilərin fikrincə, qiymətlərin artımı zamanı məhsul istehsalının artması qısamüddətli haldır, inflyasiya dərəcəsi artdıqca artıq inflyasiya ilə istehsal və onunla əlaqədar olaraq iqtisadi artım arasında tərs mütənasib əlaqə mövcud olur. Onlar bunu iki cür izah edirdilər ki, birinciyə əsasən qısa müddət ərzində istehsal müəssisəsi tərəfindən qiymətlərin artırılması zamanı öz mənfəətlərində də artım əldə etmiş olurlar, lakin bilmirlər ki, ölkədaxili bütün sahələrdə də bu hal baş verir və bu daxilolmaların sonrakı

mərhələsi ümumi ölkə səviyyəsində qiymətlərin artması şəraitində daxil olacaqdır. İkinci hal odur ki, inflyasiya baş verən zaman artıq istehsal müəssisələri istehsala çox vəsait sərf etdikləri üçün də istehsalı dayandıra bilmirlər. Çünki onlar tələb-təklif əsasında deyil istənilən halda əvvəlcədən bağlanmış müqaviləyə uyğun olaraq xidmətləri göstərməlidirlər [2, s. 5-6].

Keynsçilər inflyasiyanı iqtisadi artım üçün stimul adlandırmışlar. Çünki istənilən halda ölkədə mövcud olan inflyasiya əhalini pulu maddiləşdirməyə təşviq edəcək və bazarda canlanma yaranacaqdır. Belə ki, Məcmu tələbin stimullaşdırılması ilə qiymət səviyyəsinin yüksəlməsi istehsalçılar tərəfindən istehsalın yüksəlməsinə gətirib çıxardacaqdır.

Khan və Senhadi [3] ekonometrik metodlardan istifadə edərək 140 ölkənin 1960-1968-ci illəri əhatə edən statistik məlumatlarına istinadən tədqiqat aparmış və bu qənaətə gəlmişlər ki, iqtisadi artım ilə inflyasiya arasında qeyri xətli əlaqə var. Empirik qiymətləndirmə zamanı belə nəticəyə gəlmişlər ki, İEÖ-də inflyasiyanın qəbul olunan həddi 1-3%, İEOÖ-də isə 7-11%-dir. Qeyd olunan həddən aşağı dərəcədə olan inflyasiya iqtisadiyyat üçün zərərsizdir.

Bruno Jossa və Marco Musella-nın [4, s.3-30] "İnflyasiya, İşsizlik və Pul" adlı kitabında iqtisadi artımla inflyasiya arasındakı əlaqəni araşdırmaq üçün inflyasiya böhranı yaşamış 26 ölkəni tədqiq olunmuşdur. Ölkələrin illik inflyasiyası ilə iqtisadi artımın determinantları arasında empirik təhlil aparılmış və belə nəticəyə gəlinmişdir ki, inflyasiyanın iqtisadi artım üçün təhlükəsiz həddi 40%-dir. Ancaq Bruno Jossa belə bir məsələni də irəli sürərək bildirmişdir ki, inflyasiya dərəcəsi 40%-dən yüksək olduğu halda da iqtisadi artıma neqativ təsiri qısamüddətlidir. Belə ki, faiz dərəcəsi təhlükəli həddən artıq olduğu təqdirdə iqtisadi artım canlanır və bu da öz növbəsində inflyasiyanın real faizinin azalmasına gətirib çıxarır.

Behera (2014) [5, s.145-155] altı Cənubi Asiya ölkəsində 1980-2013-cü illəri əhatə edən dövr üçün araşdırma aparmışdır. Belə ki, onun gəldiyi qənaətə əsasən Banqladeş, Butan, Hindistanda iqtisadi artım inflyasiyaya, Nepalda isə əksinə inflyasiya iqtisadi artıma səbəb olur. Maldiv və Şri-Lankada isə onlar arasındakı səbəb və nəticələrini təsbit edə bilməmişdir.

## 2. İnflyasiya və iqtisadi artım əlaqəsinin təhlili

Elm və texnikanın intensiv inkişafı, ölkənin iqtisadi inkişafının göstəricilərinin artması, ölkənin maliyyə imkanlarının, əhalinin gəlir və yaşayış səviyyəsinin yüksəlməsi, infrastrukturun müasir dövrün tələblərinə uyğun modernləşdirilməsi, iqtisadiyyatın inkişafına yönəlmiş sosial-iqtisadi proqramların həyata keçirilməsi, iqtisadiyyatda məcmu tələb və təklif arasında tarazlığa nail olunması üçün Mərkəzi Bank məqsədyönlü tədbirlər həyata keçirir. Qiymətlərin sabitliyinin qorunub saxlanması, pulun alıcılıq qabiliyyətinin, inflyasiyanın iqtisadi inkişaf üçün məqbul səviyyəsinin nəzarətdə saxlanılması və bu kimi digər

funksiyaları yerinə yetirmək üçün Mərkəzi Bank iqtisadi şəraitə uyğun olaraq bir sıra pul siyasəti alətlərindən istifadə edir.

Azərbaycanda inflyasiya ilə iqtisadi artım arasındakı əlaqə və asılılığı araşdırmaq üçün 3 ayrı dövrün müəyyən iqtisadi göstəricilərinin müqayisəsini apardıq.

**Cədvəl 1.** 1991-1995-ci illər ərzində istehlak qiymətləri indeksinin və ÜDM göstəriciləri

I mərhələ

| **Göstəricilər** | **İllər** | | | | |
|---|---|---|---|---|---|
| | 1991 | 1992 | 1993 | 1994 | 1995 |
| **ÜDM-in artımı** | 99.3 | 77.4 | 78.9 | 80.3 | 88.2 |
| **İstehlakqiymətləriindeksi** | 206.6 | 1012.3 | 1229.1 | 1763.5 | 511.8 |

Təhlil etdiyimiz I mərhələdə (1991-1995-ci illər) ölkə iqtisadiyyatındakı iqtisadi artım və inflyasiya proseslərinin müasir xüsusiyyətini iqtisadi inkişaf dövrləri üzrə tədqiq etdik. Həmin illərdə istehsal sahələri sıradan çıxmış, respublikanın ənənəvi iqtisadi əlaqələri qırılmış, ölkənin bu qəbildən olan digər əlaqələri pozulmuş, satış bazarları itirilmiş, Qarabağ müharibəsi iqtisadi tənəzzülü və inflyasiyanı şərtləndirən əsas məsələlərdən birinə çevrilmişdir. Yəni bu dövrdə inflyasiyaya birbaşa təsir edən məsələ siyasi məsələlər idi.

Sonrakı dövrlərdə aparılan sərt büdcə-vergi, pul-kredit siyasəti, xarici iqtisadi əlaqələrin tənzimlənməsinə dair proqramların yaradılması, valyuta bazarının liberallaşdırılması 1998-2002-ci illərin istehlak qiymətləri indeksinin və ÜDM göstəricilərinə təsir göstərmişdir. Bu iki iqtisadi amil arasındakı əlaqənin dinamikası aşağıdakı cədvəldə verilmişdir.

**Cədvəl 2.**1998-2002-ci illər ərzində istehlak qiymətləri indeksinin və ÜDM göstəriciləri

II Mərhələ

| **Göstəricilər** | **İllər** | | | | |
|---|---|---|---|---|---|
| | 1998 | 1999 | 2000 | 2001 | 2002 |
| **ÜDM-in artımı** | 110 | 107 | 111.1 | 109.9 | 110.6 |
| **İstehlak qiymətləri indeksi** | 99.2 | 91.5 | 101.8 | 101.5 | 102.8 |

*Mənbə: [6]*

Bu cədvəldən görüldüyü kimi artıq inflyasiya iqtisadi artıma təsir edən ilkin amillərdən birinə çevrilməyə başlanmışdı. Ancaq bundan öncəki təhlil etdiyim dövrün mövcud güclü siyasi və iqtisadi şərtlər fonunda inflyasiya ilə iqtisadi artım arasında əlaqə və asılılığın araşdırılması heç bir düzgün nəticə əldə etməyimizə imkan verməzdi.

Həmçinin, onu da vurğulamaq mütləqdir ki, 1996-cı ildən Beynəlxalq institutların, xüsusilə, BVF-nin dəstəyi ilə ölkədə ciddi antiinflyasiya tədbirləri görülməyə başlandı, pul kütləsi üzərində nəzarət gücləndirildi, manatının məzənnəsi sabitləşdirildi.

III mərhələdə müasir dövr daha geniş spektrdə nəzərdən keçirilmişdir. Belə ki, iqtisadi artımın əsas əlamətlərini və istehlak qiymətləri indeksinin illər üzrə göstəricilərinə nəzər salsaq görərik ki, illər üzrə müəyyən siyasi-iqtisadi amilləri təsirindən ölkəmizin iqtisadiyyatının ümumi mənzərəsi fərqli olmuşdur. Bu göstəricilərdən belə qənaətə gəlmək olar ki, inflyasiyanın 3-4% dəyişməsi iqtisadi artıma və onun əsas göstəricilərinə cüzi təsir edir.

**Cədvəl 3.** 2011-2017-ci illər ərzində iqtisadi göstəricilərin faizlə ifadəsi

| ***İllər*** | **İstehlak qiymətləri indeksi** | **Kapital qoyuluşu** | **Əhalinin illik gəlirləri** | **ÜDM** | **Adambaşına ümumidaxili məhsulun dinamikası, faizlə** | **İşsiz əhalinin sayı min nəfər** |
|---|---|---|---|---|---|---|
| *2011* | 107,9 | 127.3 | 161.1 | 109.0 | 101.3 | 250.9 |
| *2012* | 101,1 | 118.5 | 141.4 | 106.7 | 100.5 | 243.1 |
| *2013* | 102,4 | 115.1 | 130.9 | 100.8 | 96.3 | 236.6 |
| *2014* | 101,4 | 98.3 | 124.6 | 98.1 | 94.8 | 237.8 |
| *2015* | 104,0 | 88.9 | 117.8 | 97.0 | 94.9 | 243.7 |
| *2016* | 112,4 | 78.2 | 108.3 | 100.1 | 99.1 | 252.8 |
| *2017* | 112,9 | 174.3 | 100 | 100.0 | 100.0 | 251.7 |

*Qeyd: 2017-ci ilin əhalinin illik gəlirləri, ÜDM, adambaşına ümumi daxili məhsulun dinamikası göstəricisi digər illərin müqayisəsi üçün(baza olaraq) 100%-lik əmsalla göstərilmişdir.*

Dövrün daha ciddi siyasi, iqtisadi, sosial və digər halları +-(3-4)% -lik inflyasiyadan daha çox təsir edir. Hətta bu göstəricilərin analizi onu deməyə əsas verir ki, bəzi iqtisadi dövrlərdə əks əlaqə də mövcuddur.

2015-2016-ci illərdə göstəricilərin digər illərə nisbətən ürəkaçan olmamasının səbəbi 2015-ci ilin dekabrında və 2016-ci ilin fevral ayında baş vermiş devalvasiyadır. Bu dövrün iqtisadi artımın əsas göstəricilərinə təsir edən əsas amili birbaşa olaraq inflyasiya deyil, manatın ABŞ dollarına nəzərən ucuzlaşması idi.

2017-ci ilə nəzər salsaq görərik ki, Azərbaycanın xarici iqtisadi mövqeyi yaxşılaşmışdır. Belə ki, tədiyə balansının 2015-2016-cı illərdəki kəsiri 2017-ci ilin ilk 9 ayında 1.4 mrld ABŞ dolları həcmində profisitlə əvəz olunmuşdur. Cari əməliyyatların hesabında da ÜDM-in 3.8%-i səviyyəsində profisit müşahidə olunmuşdur. Bu nəticəyə nail olmaq üçün manatın qeyri-neft sektoru üzrə real effektiv məzənnəsinin 36% ucuzlaşması və diversifikasiya tədbirləri nəticəsində qeyri-neft ixracına əsaslı təsir göstərmişdir. Bundan əlavə olaraq onu da qeyd etmək lazımdır ki, 2017-ci ildə əldə olunan profisit ölkənin strateji valyuta ehtiyatlarının artmasına da təsir etmişdir. Mərkəzi Bankın valyuta ehtiyatları 5.2 mrld ABŞ dolları təşkil etmişdir [7].

AR Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2017-ci ildə Azərbaycanda inflyasiya 13.4 % təşkil etmişdir. İnflyasiyaya təsir edən başlıca amillər dünya arenasında baş

verən iqtisadi, siyasi hadisələr və onların birbaşa və dolayı yolla milli valyutamıza, bir sıra əmtəə qrupları üzrə tələb-təklifə və s. təsiridir. Bundan əlavə olaraq onu da qeyd etmək lazımdır ki, neftin dünya bazarında qiymətinin dəyişməsi, eləcə də, 2017-ci ildə iqtisadi şəraitə uyğun olaraq hədəflənən sabitlik meylləri qeyri-neft sektorunun iqtisadi artımına təsir etmişdir. Artım ticari sektorda 4.3%, digər qeyri-neft sənayesində isə 4.4%, kənd təsərrüfatında 4.2% təşkil etmişdir.

DSK-nın məlumatlarına əsasən 2017-ci ildə illik inflyasiya tempinin aşağı düşməsi müşahidə edilmişdir. Belə ki, illik inflyasiya 13.9% olmuşdur. İstehlak qiymətləri İndeksinin tərkibində ərzaq qiymətləri 17.9%, qeyri-ərzaq qiymətləri 12.5%, xidmətlər isə 9.6% dəyişmişdir [6].




**Şəkil 2.** 2017-ci ilin neft və qeyri neft sektoru üzrə faizlə göstərilməsi




**Şəkil 3**. Qeyri neft sektorunun tərkibinin faizlə göstərilməsi

AR Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2017-ci ilin ilk 9 ayında ÜDM nominal olaraq 50.1 mlrd manat təşkil etmişdir. ÜDM-in adambaşına düşən həcmi isə 5149.4 manat olmuşdur. İqtisadi artımın sektorlar üzrə bölgüsünə nəzər salsaq görərik ki, qeyri-neft sektorunun gəlirlərində əsaslı artıma nail olunmuşdur.

2016 və 2017-ci illərin inflyasiya göstəricələri, diffuziya indeksini, habelə iqtisadi artım göstəricilərini müqayisə edərək bu qənaətə gəlmək olar ki, inflyasiya ilə iqtisadi artım arasında qeyri- xətti əlaqə var. 2017-ci ildə mövcud olmuş inflyasiyanın 13.5 % həddi iqtisadi artım üçün qəbulolunan həddən 3-4% çoxdur və məhz bu səbəbdən də 2018-ci ildə Mərkəzi Bankın ölkədaxilində makroiqtisadi sabitlik çərçivəsində inflyasiyanın azaldılmasına yönəldilmiş ənənəvi siyasəti davam etdirmək olacaqdır. Aparılan çoxsaylı təhlillər, ssenarilər nəticəsində 2018-ci ildə real artım tempi ÜDM üzrə 1.5%, qeyri neft sektoru üzrə isə 2.9% proqnozlaşdırılır.




*Mənbə: DSK*

**Şəkil 4.** 2016 və 2017-ci illərin ilk 9 ayı ərzində istehlak qiymətləri indeksi, ərzaq , qeyri-ərzaq və xidmət sahələri üzrə orta illik inflyasiyanın faizlə dəyişməsi




**Şəkil 5.** 2016 və 2017-ci illərin ilk 9 ayı ərzində istehlak qiymətləri indeksi ilə diffuziya indeksinin* dəyişmə dinamikası

**Nəticə.** Yuxarıda qeyd olunan modellərə, məlumatlara, statistik göstəricilərə istinadən deyə bilərik ki, inflyasiya ilə iqtisadi artım arasındakı əlaqə bu cürdür ki, aşağı səviyyəli inflyasiya iqtisadi artım üçün zərərli deyil və çox vaxt ona stimul verir, ancaq bu hal müəyyən həddə qədər davam edir, bu həddi keçən zaman iqtisadi artıma mənfi təsir edir.

Bundan əlavə olaraq onu qeyd etmək istəyirəm ki, Milli Məclisin keçirilmiş plenar iclasında dövlət və icmal büdcə layihəsinin müzakirəsi zamanı qeyd edilmişdir ki, 2018-ci ildə sistemli islahatların davam etdirilməsi, bank sektorunun sağlamlaşdırılması və valyuta bazarında gözləntilərin səmərəli idarə olunması, makroiqtisadi sabitliyə təhdid yaradan xarici iqtisadi şokların yaşanmaması şərtləri əsas götürülməklə, növbəti ildə inflyasiyanın birrəqəmli, iqtisadi artımın isə müsbət olması proqnozlaşdırılıb.

Ümumiyyətlə, belə bir məsələni də diqqətdə saxlamaq lazımdır ki, iqtisadçılar tərəfindən istənilən işlənilmiş modeli dünyanın bütün ölkələrinin iqtisadiyyatına aid etmək olmaz. Belə ki, istənilən ölkənin iqtisadi artımına və inflyasiya dərəcəsinə təsir edən ümumi faktorlardan başqa xüsusi faktorlar da mövcuddur ki, onların da iqtisadiyyata təsiri danılmazdır. Hər ölkənin iqtisadi şəraiti, iqtisadi-siyasi vəziyyəti, həyata keçirdiyi daxili və xarici siyasəti, inkişaf səviyyəsi, sənayesi və s. fərqli və özünəməxsus olduğu üçün inflyasiyanın iqtisadi artım üçün qəbul olunan həddi də dövrlər üzrə özünəməxsusdur. Müasir dövrdə aparılan çoxsaylı tədqiqatlar onu deməyə əsas verir ki, inflyasiya ilə iqtisadi artıma təsir edən yeganə amil deyil. Belə ki, tədqiq olunan iki dövrdə eyni inflyasiya dərəcəsi olduğu halda iqtisadi artımın əsas göstəriciləri fərqli ola bilər. Bunun da səbəbi qeyd etdiyim kimi inflyasiyanın iqtisadi artıma təsdiq edən yeganə faktor olmamasıdır. Ancaq siyasi, iqtisadi və s. sabitlik fonunda inflyasiya iqtisadi artıma təsir edən 1-ci dərəcəli amilə çevrilir.

* Diffuziya indeksi – İstehlak səbətinə daxil olan və artım müşahidə olunan məhsulların sayı ilə azalanların fərqinin ümumi məhsul sayına nisbətidir

**Ədəbiyyat**

1. Bruno M., Easterly W., (1996), Inflation and growth, Review, pp.138-139.
2. Keynes J.M. (2018), The general theory of employment, interest, and money. Springer.
3. Khan M. (2005), Inflation and growth in MCD Countries. Washington, DC: International Monetary Fund.
4. Easterly W., Bruno M. (1999), Inflation crises and long-run growth. The World Bank.
5. Behera J. (2014), Inflation and its impact on economic growth: Evidence from six South Asian countries. Journal of Economics and Sustainable Development, 5(7), 145-154.
6. https://www.stat.gov.az/
7. https://www.cbar.az/